*Bütöv şəxsiyyət olmaq xoşbəxtliyi hər kəsə nəsib olmur. Belə insanların sözündə, əməlində səmimilik, ətrafındakılara qayğıkeşlik, həssas münasibət, mübarizlik, yenilik, quruculuq axtarışları daha çox hiss edilir. Əsl zəhmət adamının həyat yolu çətin, lakin şərəfli olur. Ömrün ən ağır dönəmlərindən keçən və elmi ictimaiyyət arasında adı hörmətlə çəkilən belə ziyalılardan biri də Qərbi Azərbaycan torpağında dünyaya göz açan Rza Xəlil oğlu Vəlibəyov olmuşdur.*

# Haylar arasında məğrur türk



El gözündə pillə-pillə ucalan Rza Vəlibəyov haqqında düşünən həmişə gözlərim önünə "Kitabi-Dədə Qorqud"dan üzü bəri dilimizin əzbəri olan Talin rayonunun Əkərək kəndi, onun füsunkar təbiəti, türk yurdunun sıldırım qayalıqları, qıjıltı ilə axan dağ çayları, şərbət bulaqlar gəlir. Bu da təsadüfi deyildir, çünki Qərbi Azərbaycanın bir parçası olan Talinin bir termin olaraq ehtiva etdiyi məzmunda türklük, türkün müqəddəs ruhu, cahanşümul idealları, dünya nizamına vermək istədiyi məqsəd və məram canlanır. Talin elləri türkün bu gün və gələcək üçün birlik və dayanıqlıq simvoludur.

XX əsrin 70-ci illərində İrəvanın ədəbi-ictimai və siyasi mühitindən söhbət düşəndə iki əmioğlunun adı tez-tez çəkilirdi: Rza və Cəfər Vəlibəyovlar.

Rza Vəlibəyov 1903-cü ildə Qərbi Azərbaycanın Talin rayonunda anadan olmuşdur. Bu kəndin sakinləri 1918-ci ildə faşist xislətli erməni daşnakları ilə vuruşmuş, işgəncələrə məruz qalmış, məcburiyyət qarşısında qalaraq doğma kəndlərindən ayrılaraq dağlara çəkilməyə məcbur olmuşlar. Soydaşlarımızın bir ayağı doğma kəndlərində olmuş, mənfur düşmənlərdən qorxmamışlar. Hətta qaranlıq bir gecədə 5-6 nəfər kəndin polad biləkli oğulları sərt bir qayalıqda ermənilərlə üz-üzə gəlmiş, türk oğulları qızıl quş tək hayların üstünə cummuş, nəticədə onları məhv edərək leş-leşə söykəmişlər...

1920-ci ilin noyabrında Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra ictimai ab-hava dəyişməyə başladı. Elmi biliklərə mükəmməl yiyələnən Rza Vəlibəyov arzular qanadında qısa müddətdə siyasi kurslarda təhsil alır. 1922-ci ildə Ermənistan LKGİ Komitəsində, sonra isə Ermənistan KP İrəvan Şəhər Komitəsində təlimatçı vəzifələrində çalışır.

Çox erkən yaşlarında Rza Vəlibəyova məsul vəzifələr etibar edilmişdir. 1922-ci ilin sonlarında artıq 19 yaşında o, Vedi Rayon Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsinə irəli çəkilmişdir. 1924-cü ildə o, Zaqafqaziya Kommunist Universitetinə göndərilmiş və 1928-ci ildə həmin universiteti uğurla bitirmişdir.

Zaman ötdükcə R.Vəlibəyov Ermənistan KP Basarkeçər Rayon Komitəsinin birinci katibi, Ermənistan KP Mərkəzi Komitəsinin orqanı olan "Qızıl Şəfəq" qəzetinin redaktoru işləmiş, mətbuatda kəsərli yazıları ilə çıxış etmiş, respublikanın azərbaycanlılar yaşayan ərazilərinə tez-tez baş çəkmiş, onların üzləşdikləri çətinliklərin aradan qaldırılmasında məqsədyönlü iş aparmışdır.

Vurğulamaq lazımdır ki, R.Vəlibəyov otuzuncu illərdə Ermənistan proletar yazıçıları cəmiyyətinin türk (azərbaycanlı) bölməsinə sədrlik etmişdir.

Rza Vəlibəyov təhsilini artırmaq üçün yenidən oxumağa göndərilmiş, 1931-1933-cü illərdə Moskvadakı Qırmızı Professorlar İqtisadiyyat İnstitunda oxumuş və oranı bitirdikdən sonra Ararat Maşın-Traktor Stansiyasında siyasi şöbənin rəisi vəzifəsində, sonra Vedi Rayon Partiya Komitəsinin birinci katibi, 1937-ci ildə Ermənistan SSR Xalq Komissarları Soveti sədrinin müavini vəzifəsində çalışmışdır.

O, 1939-1941-ci illərdə Moskvadakı Sənaye Akademiyasının Plan İqtisadiyyat İnstitutunun dinləyicisi olmuşdur. Həmin institutu qurtardıqdan sonra keçmiş SSRİ Dövlət Bankının Ermənistan Kontorunun müdir müavini, sonra isə müdiri işləmişdir.

R.Vəlibəyov 1944-cü ildən 1947-ci ilədək Türkiyədə SSRİ ticarət nümayəndəsinin müavini vəzifəsini yerinə yetirmişdir.

O, Ermənistana qayıtdıqdan sonra mətbuat və xalq maarifi sahəsində fəal və səmərəli işləmiş, "Sovet Ermənistanı" qəzetinin redaktoru olmuşdur. Həmin dövrdə qəzetdə müsahibə, reportaj, oçerk, felyeton və digər janrlardan olan yazılara geniş yer ayrılmış, peşəkar, gənc jurnalistlərin işə qəbul olunması diqqət mərkəzində olmuş, mətbuat işçiləri üçün normal şərait yaradılmışdır.

Böyük həyat yolu keçən, həmişə yüksək vəzifələrdə çalışan R.Vəlibəyov böyük qabiliyyəti, əməksevərliyi, işgüzarlığı ilə özünü doğrultmuşdur.

R.Vəlibəyov 1949-1962-ci illərdə Ermənistan SSR Maarif nazirinin müavini, 1962-ci ildən ömrünün sonunadək Ermənistan SSR Nazirlər Sovetində məsləhətçi vəzifəsində çalışmışdır.

Onun bütün fəaliyyəti doğulduğu torpaqla bağlı olmuşdur. Qərbi azərbaycanlılar arasında SSRİ Ali Sovetinə ilk deputat seçilənlərdən biri Rza Vəlibəyov idi.

O, bir çox orden və medallarla, o cümlədən iki Qırmızı Əmək Bayrağı ordeni, "Şərəf nişanı" ordeni, Ermənistan SSR Ali Sovetinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Hərtərəfli zəngin biliyə, yüksək savada malik olan R.Vəlibəyov 1960-1974-cü illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunda müəllimlik etmiş, siyasi iqtisad fənnini tədris etmiş, azərbaycanlı tələbələrin zəngin bilik almalarına maksimum səy göstərmişdir. Tanınmış dövlət və maarif xadimi, jurnalist, pedaqoq R.Vəlibəyov həm də bədii yaradıcılıqla məşğul olmuş, iti qələm sahibi kimi tanınmışdır. O, "Keçmiş günlərdən" kitabının müəllifidir. Bu əsər oxucuların stolüstü kitabına çevrilmişdir.

R.Vəlibəyov rəhbər vəzifələrdə işlədiyi illərdə Ermənistanda azərbaycanlılara qarşı xəyanət torunun hazırlanmasını hər addımda hiss edirdi. Moskvadakı ermənipərəst qüvvələrin uydurma Qarabağ problemini ortaya atmaları, erməni millətçilərinə arxa və dayaq durmaları Rza Vəlibəyovu çox narahat edirdi.

Qərbi Azərbaycanın görkəmli ziyalılarından olan, qəlbi yurd eşqi ilə döyünən, qədim İrəvan şəhərinin hər qarışında ayaq izləri qalan Rza Vəlibəyov 1974-cü ildə 71 yaşında vəfat etmişdir. O, İrəvan şəhərində Fəxri panteonda dəfn olunmuş yeganə azərbaycanlıdır.

**Qədir ASLAN,**
**"Respublika".**

Respublika .- 2025.- 13 mart (№ 55).- S.10.